# Bum qəsəbəsinə təbii qaz çəkilişi başa çatmaq üzrədir

İyirminci əsrin 90-cı illərinin ortalarından üzübəri müstəqil Azərbaycan sürətlə inkişaf edir. Azərbaycan dövləti qarşıya bir çox həlli vacib vəzifələr qoyur və onların sözsüz yerinə yetirilməsi üçün düzgün iqtisadi siyasət yürüdür. Bu düzgün siyasətin nəticəsidir ki, irəli sürülən bütün məqsədlərə uğurla çatırıq.

Hədəflərdən biri də ölkənin başdan-başa qazlaşdırılmasıdır. Bu məsələnin hər bir yaşayış məntəqəsində müvəffəqiyyətlə başa çatması üçün ardıcıl və qızğın işlər aparılır. İstilik daşıyan borular ən uca dağ zirvələrində məskən salan insanların mənzillərinədək gedib çatır.

İndi elə qəsəbə və kəndlərdə «mavi alov» şölələnir ki, orada heç sovet hakimiyyətinin ən inkişafı illərində də qaz üzü görən olmamışdır.

Çox şadıq ki, bumluların uzun illərdən bəri gözlədikləri təbii qaz problemi də artıq həllini tapır. Bum qəsəbəsi Qəbələnin qədim yaşayış məskəni olmaqla bərabər həm əhalinin, həm də fərdi təsərrüfatların sayına görə böyük yurd yeridir. Hazırda burada əhalinin sayı 5062 nəfərə, təsərrüfatların sayı isə 1185-ə çatmışdır. Buranın əhalisi ulu babalarından bəri tərəvəz əkir, kartof becərir, meyvə yetişdirir, heyvandarlıqla məşğul olur. Təqdirəlayiq haldır ki, abadlıq-quruculuq işləri son zamanlar qəsəbəni də əhatə edib yeni evlər tikilir, qəsəbənin mərkəzindən Qəbələ şəhərinə qədər uzanan yol genişləndirilib, yenidən qurulub, yola asvalt döşənib, yolun hər iki tərəfində milli memarlıq üslübunda hündür hasarlar hörülüb, yeni işıq sistemi quraşdırılıb.

Regionların ücüncü sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq bu ilin əvvəlindən Bum qəsəbəsinə təbii qaz xəttinin çəkilişinə başlanıb və hazırda sona çatmaq üzrədir. Qəsəbəyə təbii qaz xətlərinin çəkilişində MRCC (Modem Reliable and Civie Constuction) MMC-nin tikinti şirkətinin 5 briqadası, sayğacların quraşdırılmasında isə 10 briqadanın usta və fəhlələri işləyir. İş icraçısı Razi Səlimovun verdiyi məlumata görə işin icrasına başlandığı gündən indiyədək təxminən 90 kilometr məsafədə küçə daxili və 12 kilometr məsafədə isə politelin metaldan yeraltı daşıyıcı kəmər çəkilmişdir.

Qaz xətlərinin çəkilişində qaynaqçılardan Azad Zeynalov, Natiq Mustafayev və Rövşən Nəsibov böyük əmək sərf edirlər. Onlar işin sürətli aparılması ilə yanaşı, hər bir işi ölçülü-bicili görür, işin keyftyyətinə diqqətlə və məsuliyyətlə yanaşırlar. Sayğacların quraşdırılmasında Fikrət İspəndiyarovun başçılıq etdiyi briqadanın usta və fəhlələri gündəlik iş normasını 100 faizdən artıq yerinə yetirirlər.

Briqadir Fikrət İspəndiyarovun dediyinə görə 700-dən yuxarı mənzilə qaz sayğacları quraşdırılıb, onların hamısı ilk sınaqdan keçirilib.Qaz sayğaclarının quraşdırılmasında ustalardan Mübariz Camalov, Mehman Qələndarov, Rəşad Daşdıyev işin ahəngdar getməsində fəallıq göstərirlər. Həmsöhbətlərim qəsəbə sakinlərinin qonaqpərvərliyindən, onlara göstərdikləri qayğıdan ağızdolusu danışdılar. Xüsusilə, vurğuladılar ki, qəsəbənin inzibati ərazi nümayəndəsi Eynulla Məmmədov sağ olsun ki, o, daim bizimlə bir yerdə olur, işin gedişinə nəzarət edir. Hər hansı bir çətinlik yaranarsa, lazımi köməkliyini əsirgəmir. Onlar sonda bildirdilər ki, yeni ilqabağı qəsəbəyə təbii qaz veriləcəkdir, yeni ili bumlular isti ocaqlarında keçirəcəklər.

Qəsəbənin təqaüddə olan müəllimlərindən Azərbaycan Yazıçılar Birliyinin üzvü Emin Baratoğlunun və Azərbaycan Jurnalistlər Birliyinin üzvu Eldar Quliyevin dediklərindən: vaxtı ilə elektrik enrerjisinə həsrət qalaraq zülmətə qərq olan, yaxud işığı saatla, yəni fasilələrlə alan qəsəbə indi çıraqban olub. Keçən əsrin 90-cı illərinin əvvəllərindən meşələrdən odun gətirmək camaata yasaq olmuşdu. Qışın saxtasından qorunmaq üçün insanlar öz bağlarındakı meyvə ağaclarını doğrayıb sobaya atırdı. İndi çox şadıq ki, Bum qəsəbəsini qazlaşdırmaq məqsədilə sürətli iş aparılır.

Biz yaxşı bilirik ki, ölkənin başdan-başa qazlaşdırılması məsələsi möhtərəm Prezidentimiz cənab İlham Əliyevin daim diqqət mərkəzindədir. Möhtərəm Prezidentimizin sosial-iqtisadi inkişafa dair elə bir çıxışı, nitqi olmayıb ki, orada bu məsələyə toxunulmasın.

Ölkənin qaz təchizatının yaxşılaşdırılması və əhalinin digər sosial problemlərinin həllində atdığı addımlara görə ölkəmizin başçısına minnətdarıq.

# Sərnişinlər avtovağzalın nümunəvi xidmətindən razıdır

Qəbələ ölkəmizin ən sürətlə inkişaf edən rayonlarındandır. Azərbaycanın bütün bölgələrində olduğu kimi Qəbələ rayonunda da ötən 12 ildə yeni infrastrukturlar yaradılmış, böyük tikinti-quruculuq işləri aparılmışdır. Ötən müddət ərzində rayonda xeyli sayda məktəb binaları, istehsal müəssisələri, ictimai iaşə, ticarət xidməti obyektləri tikilib istifadəyə verilmişdir. İndi buraya gəlib-gedənlər Qəbələnin cazibədar siması ilə yaxından tanış olurlar. Sözün həqiqi mənasında Qəbələ şəhəri son 12 il ərzində başdan-başa yeniləşmiş, köhnə əlamətlərdən demək olar ki, qalmamışdır. 5 il bundan əvvəl Qəbələ—Ağdaş magistral şosse yolunun sağ və sol tərəfindəki köhnə, yararsız ictimai iaşə və ticarət obyektləri, kol-kos basmış bağları, yol kənarlarındakı səliqəsizlik xoşa gəlməz bir mənzərədən ibarət idi. Şəhərə giriş yolu darısqal olduğundan buradakı sıxlıq, əsasən bu yolda baş verən qəza vəziyyətləri avtomobil sürücülərini və sərnişinləri hövsələdən çıxarırdı. Xüsusən yağışlı, qarlı günlərdə bu magistral yol həmişə natəmiz və səliqəsiz olardı, bu da əhalinin haqlı narazılığına səbəb olurdu.

Amma son beş ildir ki, dünənin darısqal, nəqliyyatın sərbəst hərəkəti üçün maniələr törədən bu şosse yolu tamam başqa bir görünüş almışdır. Şosse yol müasir standartlara uyğun yenidən qurulmuş, yol genişləndirildmiş, nəqliyyat vasitələri iki tərəfli hərəkət edir, piyadalar üçün səkilər çəkilmiş, memarlıq üslübunda hasarlar hörülmüş, kommersiya şəbəkələri yenidən xüsusi zövqlə tikilmişdir. Qəbələ şəhərindən beynəlxalq hava limanına qədər uzanan yol boyu ən yaraşıqlı dirəklər üzərində quraşdırılmış elektrik lampaları isə gecə vaxtlarında yolu nur selinə qərq edir. Bundan əlavə yol kənarı əkilmiş müxtəlif növ dekorativ ağaclar bu yola yeni yaraşıq gətirir. Hədsiz dərəcədə sevinirəm ki, Azərbaycanın gözəl və dilbər guşəsi, doğma diyarımız Qəbələ bu gün bütün sahələrdə sürətlə inkişaf edir. Bir qəbələli kimi inanıram ki, çox çəkməyəcək bu qoca diyar ən yüksək səviyyəsi olan şəhərlərin ön sırasında duracaqdır. Çox fərəhli haldır ki, son 5—6 il ərzində rayon mərkəzində bir-birindən yaraşıqlı, möhtəşəm bir neçə həm inzibati, həm də xidməti obyektlər tikilib istifadəyə verilmişdir. Bu obyektlərin hər biri Qəbələ şəhərinin görkəminə yenii yaraşıq verir.

Son 5 il ərzində şəhərin cənub hissəsində tikilən ən iri xidmət obyektlərindən biri yeni avtovağzal binası sayılır. 2010-cu il fevral ayının 27-də qəbələlilərin ən mötəbər qonağı hörmətli Prezidentimiz İlham Əliyevin iştirakı ilə açılışı olan yeni avtovağzal əhalinin ən çox müraciət etdiyi obyektlərdən biridir. Dövlət başçımız rayon ictimaiyyəti nümayəndələri ilə görüşündə dedi ki, burada bütün imkanlar vardır. Yeni avtovağzal kompleksinin tikintisi Qəbələ sakinlərinin çoxdankı arzusu idi və artıq bu arzu reallaşıb. Prezident əmin olduğunu söylədi ki, burada məşğul olacaq avtovağzal işçiləri əhaliyə nümunəvi xidmət göstərəcəklər.

Xatırladaq ki, ikimərtəbəli avtovağzal obyekti geniş ərazidə yerləşir. Zəruri xidmət sahələri ilə tam təmin edilmiş bu binanın birinci mərtəbəsində xidməti otaqlar fəaliyyət göstərir. Sərnişinlərə kassalar, gözləmə, tibb, ana və uşaq, namaz otaqları, çayxana, kafe və digər bölmələr xidmət edir. Avtovağzalın ikinci mərtəbəsində isə inzibati otaqlar yerləşir. Burada qış mövsümündə istilik sistemindən, elektrik enerjisinin verilişindən səmərəli istifadə olunur. Su təchizatı yaxşıdır, avtovağzalın özünün artezianı və qazanxanası var. Həyətdə geniş abadlıq işləri görülmüş, yaşıllıq zolağı salınmışdır.

Avtovağzal rayonda nəqliyyat sahəsinin inkişafında və eyni zamanda əhalinin müxtəlif istiqamətli marşurutlardan səmərəli istifadəsində xüsusi əhəmiyyət kəsb edir. Rayonun qəsəbə və kəndlərinin sakinləri ilə yanaşı, ölkədaxili marşrutlardan sərnişinlər rahat, maneəsiz istifadə edirlər. Hazırda Qəbələ—Bakı, Qəbələ—Sumqayıt, Qəbələ—Gəncə, Qəbələ—Mingəçevir, Qəbələ—Şəki, Qəbələ—Zaqatala, Qəbələ—Oğuz, Qəbələ—Yevlax, Qəbələ—Lənkəran marşrutları üzrə sərnişinlərə xidmət göstərilir.

Avtovağzalın direktoru Azad Abdulәzizovdan aldığımız məlumata görə gələcəkdə xarici ölkələrə avtobus reysləri açılacaqdır. Burada onu da öyrəndik ki, avtovağzalın xidmətindən sutka ərzində təxminən 700—800 nəfərə yaxın sərnişin istifadə edir.

Burada hal-hazırda 27 nəfər işçi sərnişinlərə müxtəlif sahələr üzrə xidmət göstərir. Avtovağzalın işçiləri səmimi, işgüzar və təcrübəli insanlardan ibarətdir. Bu kollektivin birgə səyi nəticəsində avtovağzalın həm daxilində, həm də həyətində yaradılan səliqə-sahman diqqəti cəlb edir. Son vaxtlar burada əmək intizamı daha da gücləndirilmiş, direktorun tələbkarlığı, işçilərdə işə münasibət köklü şəkildə yaxşılaşdırılmışdır. Ən yaxşı hal kimi qiymətləndirilməlidir ki, avtovağzalın direktoru Azad Abdulәzizov işçilər arasında ayrı-seçkilik fərqi qoymur, hamıya doğma münasibət, eyni qayğı göstərir. Bu yazının sonunda onu da qeyd etməliyəm ki, avtovağzal fəaliyyətə başlayandan üzübəri sərnişinlər bu obyektin xidmətindən razıdırlar.

**Səhifənin materiallarını Aslan CƏLİLOV hazırlamışdır.**